## MƏKTƏB HAQQINDA

2019-cu ildə yaradılan ADA Məktəbi 10-cu və 11-ci sinif şagirdləri üçün ingilis dilində təhsil təklif edir. ADA məktəbində iki tədris proqramı fəaliyyət göstərir: bunlardan biri Azərbaycan Respublikasının Milli Kurikulumuna və ADA Universitetinin qabaqcıl təcrübəsinə əsaslanır, digəri isə beynəlxalq IB Diploma Proqramıdır. Beynəlxalq Bakalavriat (IB) Diplom Proqramı (DP) 16-19 yaş arası şagirdlər üçün qiymətləndirilən iki illik proqramıdır.

Məktəbdə şagirdlər həm akademik baxımdan universitet illərinə daha hazırlıqlı yetişdirilir, həm də XXI əsrin tələblərinə cavab verən kommunikasiya, kreativlik, komanda işi, analitik düşüncə kimi bacarıqları inkişaf etdirilir.

Şagirdlər qlobal baxış və güclü akademik ənənələrdən faydalanaraq həm Dövlət İmtahan Mərkəzi (DİM), həm də SAT vasitəsilə universitetlərə qəbul prosesində rəqabətqabiliyyətli olurlar. Bundan əlavə, ADA Məktəbinin məzunları ADA Universitetinə xüsusi şərtlərlə qəbul olmaq hüququna malikdirlər.

## DƏRS PROQRAMI

### Birinci il – 10-cu sinif

#### 1-ci Payız semestri

| Dərsin adı | Həftəlik dərs saatı |
|---|---|
| Azərbaycan dili və ədəbiyyatı | 3 |
| İngilis dili | 5/10 |
| Riyaziyyat | 7 |
| Fizika | 2 |
| Kimya | 2 |
| Biologiya | 2 |
| Azərbaycan Tarixi | 2 |
| Dünya Tarixi | 1 |
| Coğrafiya | 2 |
| Xarici dil: Rus / Fransız / Alman | 2 |
| Kompüter və texnologiya elmləri | 2 |
| My ADA - Mənim ADAm | 1 |

#### 2-ci Yaz semestri

| Dərsin adı | Həftəlik dərs saatı |
|---|---|
| Azərbaycan dili və ədəbiyyatı | 3 |
| İngilis dili | 5 |
| Riyaziyyat | 7 |
| Fizika | 2 |
| Kimya | 2 |
| Biologiya | 2 |
| Azərbaycan Tarixi | 2 |
| Dünya Tarixi | 1 |
| Coğrafiya | 2 |
| Xarici dil: Rus/ Fransız/ Alman | 2 |
| Kompüter və texnologiya elmləri | 2 |
| Dərsdənkənar fəaliyyətlər | 2 |
| Karyera təcrübəsi | 1 |

### İkinci il – 11-ci sinif

#### 3-cü Payız semestri

| Dərsin adı | Həftəlik dərs saatı |
|---|---|
| Azərbaycan dili və ədəbiyyatı | 4 |
| Akademik məqsədlər üçün İngilis dili | 5 |
| Riyaziyyat | 7 |
| Hesablama təfəkkürü | 2 |
| Seçim ilə 2 dəqiq elmlər fənni:Kimya/Fizika/Biologiya | 6 |
| Azərbaycan Tarixi | 2 |
| Seçim ilə 1 humanitar fənn: Coğrafiya/Dünya tarixi | 2 |
| Xarici dil: Rus/ Fransız/ Alman | 3 |
| Azərbaycan incəsənəti və mədəniyyəti | 1 |
| Dərsdənkənar fəaliyyətlər | 2 |

#### 4-cü Yaz semestri

| Dərsin adı | Həftəlik dərs saatı |
|---|---|
| Azərbaycan dili və ədəbiyyatı | 4 |
| Akademik məqsədlər üçün İngilis dili | 5 |
| Riyaziyyat | 7 |
| Hesablama təfəkkürü | 2 |
| Seçim ilə 2 dəqiq elmlər fənni:Kimya/Fizika/Biologiya | 6 |
| Azərbaycan Tarixi | 2 |
| Seçim ilə 1 humanitar fənn: Coğrafiya/Dünya tarixi | 2 |
| Akademik yazıya giriş | 2 |

### İB Diploma Proqramı

| Dərsin adı | Həftəlik dərs saatı (SL/HL) |
|---|---|
| Azərbaycan dili və Ədəbiyyatı A | 3/5 |
| İngilis dili və Ədəbiyyatı A | 3/5 |
| Rus dili və Ədəbiyyatı A | 3/5 |
| Riyaziyyat(AA) | 3/5 |
| Riyaziyyat(Aİ) | 3/5 |
| Fizika | 3/5 |
| Kimya | 3/5 |
| Biologiya | 3/5 |
| Biznesin İdarəedilməsi | 3/5 |
| Qlobal siyasət | 3/5 |
| Dünya Tarixi | 3/5 |
| Coğrafiya | 3/5 |
| Psixologiya | 3/5 |
| Xarici dil: Rus / Fransız / Alman | 3 |
| Kompüter və texnologiya elmləri | 3/5 |
| Bilik Nəzəriyyəsi | 2 |
| Core(CAS/EE) | 1 |
| Azərbaycan dili (dövlət dili kimi) | 2 |

## ADA Kurrikulum

Tədris proqramımız səriştə əsaslı kurikulumdur və ADAlılar kimi tanınan məzunların yetişdirilməsini hədəfləyir. Bu məzunlar sosial, mədəni və akademik mühitlərdə ingilis dilində inamla ünsiyyət qura bilir, eyni zamanda Azərbaycan dilində və ən azı bir xarici dildə yüksək səviyyədə biliklərə malik olurlar. Kurikulum həmçinin şagirdləri müxtəlif sahələrində əldə etdikləri biliklərə əsaslanaraq yerli və qlobal problemlərə yaradıcı həllər təklif etməyə hazırlayır. Bundan əlavə, proqram elm və texnologiya sahəsində səlisliyi inkişaf etdirir, şagirdlərə məlumat toplamaq, sintez etmək, kəmiyyət baxımından təhlil aparmaq və fiziki və təbii dünya ilə bağlı nəticələr çıxarmaq üçün məlumatları düzgün şərh etmək bacarıqları qazandırır.
Məktəb kurikulumunda təklif olunan bütün fənlər bu məqsədlərə xidmət edir və altı əsas perspektiv əsasında qurulmuşdur.

## QƏBUL QAYDALARI

ADA Məktəbi yalnız 10-cu sinfə müraciətləri qəbul edir. 2026 – 2027–cü tədris ili üçün sənədlərin qəbul prosesi 2026-ci il iyunun 30-a qədər aparılır.

ADA Məktəbinə qəbul üç mərhələdən ibarətdir:

1. İngilis dili imtahanı;
2. Onlayn ərizə formasının doldurulması və sənədlərin onlayn şəkildə yüklənməsi
3. Riyaziyyat fənnindən imtahan nəticələrinin təqdim edilməsi;

### Birinci mərhələ

ADA Məktəbinə qəbul üçün aşağıda adları qeyd olunan imtahanlar üzrə müəyyən səviyyədə ingilis dili biliyi tələb olunur:

***ADA Kurikulum üçün:***

• Duolingo onlayn İngilis dili testi - 85 bal və yuxarı
• IELTS Academic - 5.0 və yuxarı
• TOEFL iBT - 55/3.5 və yuxarı

***İB Diploma Proqramı üçün:***

• Duolingo onlayn İngilis dili testi -115 bal və yuxarı(Yazı hissəsi 85-105)
• IELTS Academic - 6.0 və yuxarı(Yazı hissəsi 5.5-6.5)
• TOEFL iBT- 92/4.5 və yuxarı(Yazı hissəsi 8-24/3.5-4.5)

### İkinci mərhələ

ADA Məktəbinə müraciət etmək üçün Elektron Ərizə Forması aşağıdakı sənədlərlə birlikdə doldurulmalıdır:

• 9-cu sinif 1-ci yarimillik qiymət cədvəli
• Şəxsiyyət vəsiqəsi (Azərbaycan vətəndaşları üçün) və yaxud MYİ/Pasport (xarici vətəndaşlar üçün);
• Doğum haqqında şəhadətnamə;
• Rəsmi fotoşəkil (3x4);
• İngilis dili imtahanın nəticəsi;
• Ərizə haqqı 100 AZN;

**ADA Məktəbinə elektron ərizənin doldurulması ilə bağlı video təlimat Youtube kanalımızda yerləşdirilib:** https://youtu.be/8eozEftihDY?si=I2YfKAARfkg5JLMu

**Elektron Ərizə üçün link:** https://adaschoolapply.ada.edu.az/

### Üçüncü mərhələ

Azərbaycan Respublikasında təhsil alan bütün şagirdlər Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən 9-cu sinif buraxılış imtahanının riyaziyyat nəticələrini təqdim etməlidirlər. Riyaziyyat üzrə minimum keçid balı **60**-dır.

***Vacib qeyd:***
2026–2027-ci tədris ili üçün yerlərin məhdud olması səbəbindən, üstünlük riyaziyyat fənni üzrə 75 və daha yüksək bal toplamış namizədlərə veriləcəkdir. 60–74 bal aralığında nəticə göstərən namizədlər yalnız birinci qəbul mərhələsindən sonra boş yerlər qaldığı təqdirdə nəzərdən keçiriləcəklər.

Xaricdə və ya Azərbaycanda fəaliyyət göstərən beynəlxalq məktəblərdə təhsil alan və DİM tərəfindən keçirilən 9-cu sinif buraxılış imtahanında iştirak etməyən şagirdlər ADA Məktəbinin daxili riyaziyyat imtahanında iştirak etməlidirlər.

## TƏHSİL HAQQI

ADA Məktəbində təhsil ödənişlidir. İllik təhsil haqqı ADA Kurikulum üçün – 10,000 AZN, İB Diploma Proqramı isə 15,000 AZN təşkil edir. Bura dərsliklər, dərs ləvazimatları,yemək və digər xidmətlər üzrə xərclər daxil deyil.

## Yüksək akademik göstəricilər əsaslı təqaüd

Bu təqaüd yalnız ADA Məktəbinin kurikulum proqramına yeni qəbul olunan şagirdlərə təqdim olunur.

9-cu sinif üzrə Respublika Fənn Olimpiadalarında riyaziyyat, fizika, biologiya, kimya və informatika fənləri üzrə 1-ci yer tutmuş şagirdlər, illik minimum 3.0 GPA-nı qoruyub saxladıqları təqdirdə, ADA Orta Məktəbində təhsil aldıqları müddət ərzində 100% təhsil haqqından azad olunacaqlar.

Yuxarıda qeyd olunan tələbləri yerinə yetirməyən şagirdlər növbəti tədris ilində (11-ci sinif) bu təqaüd üçün uyğun hesab olunmayacaqlar.

## ADA MƏKTƏBİNDƏN ADA UNİVERSİTETİNƏ QƏBUL QAYDALARI

ADA Universitetinin bakalavr pilləsinə qəbul prosesi yüksək rəqabətlidir. Bununla belə, ADA Məktəbinin məzunları imtiyazlı qəbul prosesindən faydalanırlar.

ADA Məktəbinin məzunlarından DİM bakalavr səviyyəsinə qəbul imtahanı tələb olunmur. Onlar ADA Universitetinin bakalavr proqramına yalnız ADA Məktəbinin yekun akademik nəticələrinə əsasən qəbul olunurlar.

ADA Məktəbinin məzunları ADA Universitetinin bakalavr proqramlarına müraciət etmək üçün aşağıdakı tələblərə (hər 3 tələbə) cavab verməlidirlər:

**1. Ümumi orta bal tələbi**

- Ümumi orta bal (CGPA) minimum 2.00 olmalıdır:
- Ümumi orta balın 85%-ni şagirdin 10-11-ci sinif üzrə dörd semester ərzində topladığı yekun qiymətlər təşkil edir.
- Ümumi orta balın 15%-ni Dövlət İmtahan Mərkəzi tərəfindən Azərbaycan dili (7%) və riyaziyyat (8%) fənləri üzrə keçirilmiş imtahan nəticələri təşkil edir.
- DİM imtahan nəticələrinin apellyasiya, və ya təkrar imtahan səbəbi ilə dəyişdirilməsi barədə Qəbul şöbəsinə məlumat vermək şagirdin məsuliyyətidir.

*Qeyd: 11-ci sinfin sonunda ümumi orta balı (CGPA) 2.00-dan aşağı olan şagirdlər SAT və ya DİM imtahanı yolu ilə cari ildə ADA Universitetinə müraciət edə bilərlər.*

**2. Digər fənlər üzrə illik qiymət tələbi**

11-ci sinfin sonunda ADA Universitetinin yalnız aşağıda qeyd olunan fakültələrinə qəbul üçün qeyd olunan fənlərdən 2 CGPA-dən əlavə, illik minimum *C- (70)* qiymətini almaq **tələb olunur:**

- Biznes fakültəsi: Riyaziyyat
- İT və Mühəndislik fakültəsi: Riyaziyyat və Kompüter elmləri

***Qeyd:** ADA Universitetinin bakalavr pilləsi üzrə digər fakültə və ixtisaslara ayrı fənlər üzrə minimum C-(70) qiyməti **tələb olunmur.***

**3. Azərbaycan dili tələbi**

- 11-ci sinifdə təhsil alan şagirdlər Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən Azərbaycan dili dövlət dili kimi imtahanından iştirak edərək, minimum **50%** toplamalıdırlar. Bu imtahanın tarixləri və keçid balı DİM tərəfindən müəyyənləşdirilir.
- Birinci imtahandan qeyri-məqbul alan şagirdlərə DİM tərəfindən təkrar imtahan keçirilir. Təkrar imtahanın nəticəsi GPA-ya daxil edilir və universitetə qəbulda nəzərə alınır, lakin attestatda yalnız ilk cəhdin nəticəsi qeyd olunur. DİM imtahan nəticələrinin apellyasiya, və ya təkrar imtahan səbəbi ilə dəyişdirilməsi barədə Qəbul şöbəsinə məlumat vermək şagirdin məsuliyyətidir.